## Kirman Rustemli

# Darağacı

*Rüstəm Behrudi'nin "Darağacı" şeirinə nəzirə.*

Mən sənə gəlmişəm bitirim zülmü
Axıtma göz yaşı nə mənə acı.
Heç kim arzulamaz belə ölümü
Çağır cəlladını ay darağacı.

Nədir ki günahım haqqdan qaçmışam?
Asi olmamışam yaradan kəsə.
Təki bircə kərə ağız açmışam
Günahın demişəm girərək bəhsə.

Axı nədən dözüm məhv olur arzum
Dilimdə qıfıllar kilidlənibdir
Yediyim bir tikə olubdur zoqqum
Mənim boğazımda söz bəndlənibdir.

Nə qədər can aldın bir-bir sayım mən?
Zülmün bitəcəyi yerdə imişsən.
Kəndirin züyüşkən necə qayım mən
Sən məndən də betər dərddə imişsən.

Bilmirəm kim qurub səni ucaldıb?
Başlardan nə qədər salmısan tacı
Ölümün nə qədər başı alçaldıb
Sən də asılarsan ay darağacı..